Mühazirə 12.
Sahibkarlıq fəaliyyətində risklər

Plan:

1. Riskin mahiyyəti və növləri
2. Layihənin baş verməsi zamanı baş verən risklər və onların qiymətləndirilməsi üsulları
3. Risk dərəcələrinin riyazi üsullarla qiymətləndirilməsi
4. Sahibkarlıq fəaliyyətində riskin azaldılması yolları və metodları

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Ş.Ə.Səmədzadə, V.R.Musayev. İ.Z.Seyfullayev. Sahibkarlığın əsasları. Dərslik. Bakı 2010
2. F.H.Abbasov, R.A.Quliyev. Sahibkarlığın əsasları. Dərslik. Bakı 2012.
3. A.H.Tağıyev, S.A.Fərzəliyev. Biznesin təşkili və idarə edilməsi. Sumqayıt 2007.
4. Qreqori Mənkyu "Ekonomiksin əsasları" Harvard Universiteti. Tərcümə 2010.
5. V.R.Musayev, İ.Z.Seyfullayev "Sahibkarlığın əsasları". Bakı 2000.
6. V.Niftullayev "Sahibkarlığın əsasları". Bakı 2002.

1.Riskin mahiyyəti və növləri

Bazar iqtisadiyyatının inkişaf etməsi ilə əlaqədar, sahibkarlıq fəaliyyəti qeyri-müəyyən vəziyyətdə və iqtisadi mühitin dəyişkənliyinin artdığı şəraitdə həyata keçirilir. Bu, o deməkdir ki, gözlənən son nəticələrin alınmasında qeyri-müəyyənlik və inamsızlıq baş verir ki, bununla risk, müvəffəqiyyətsizlik təhlükəsi, gözlənilməz itkilər artır. Vaxtında risk etmək qabiliyyətinə malik olan sahibkar etdiyi bu "fədakarlığa" görə əlavə gəlir əldə edir. Risk dedikdə çox zaman hüquqsuz fəaliyyətin yaradılması da başa düşülür. Bu anlayışın digər xarakterik cəhətləri də vardır. Risklərin xarakterik xüsusiyyətlərindən biri qarmaqarışıqlıq, gözlənilməzlik, inamsızlıq və təxmini fərziyyədir. Sahibkarlıq fəaliyyəti müəyyən təşkilati-hüquqi formaya malik müəssisələrin əmlak məsuliyyəti çərçivəsində, yəni öz etdikləri risklər baxımından həyata keçirilir. Sahibkarların məlumatsızlığından istifadə etməklə bazarda aparılan əməliyyatlar hesabına öz fəaliyyətini canlanmağa cəhd göstərən xırda və orta firmaların təklifləri daim reklam edilir.

Risklərin nəticəsini aradan qaldırmaq üçün təkcə dərrakə və təcrübə deyil, həm də kifayət qədər maliyyə vəsaitlərinin olması da zəruri olur. Konsultant firmalar, mal göndərənlər və podratçılar adətən riskli kompensasiyası üçün məhdud pul vəsaitlərinə malik olurlar. Bu və digər layihələrin yüksək dərəcədə risklərə malik olması işçiləri məcbur edir ki, onun aşağı salınması imkanlarını axtarsınlar.

Risklərin azaldılmasının əsas vəsaitlərinə aşağıdakılar daxildir: -layihənin hazırlanmasına kompotent tərəf müqabilləri və məsləhətçilərin cəlb edilməmsi; -proqramla bağlı layihə ərəfəsindəki işlərin və hazırlıq mərhələsinın genişləndirilməsi; -bazar konyukturunun inkişaf tendensiyasının, məhsul və xidmətlərə olan tələbin

proqnozlaşdırılması; -layihənin iştirakçıları, onun icraçıları arasında risklərin bölüşdürülməsi; - sığorta ilə bağlı məsələlərin vaxtında yerinə yetirilməsi; - gözlənilməz risklərin aradan qalıdırıması üçün vəsait ehtiyatının hazırlanmasi.

Beləliklə, istəyimizdən asılı olmayaraq, bazara daxil olarkən, biz qeyri-müəyyənliklərlə, yüksək dərəcəli risklərlə qarşılaşırıq. Yüksək dərəcəli risklərin bir çox sahibkar və müəssisəni böhran səviyyəsinə gətirib çıxarması artıq təcrübələrdən məlumdur. Böhran vəziyyətinin yaranması mənbələri hər şeydən əvvəl qərarlar qəbul edən rəhbər işçinin (menecerin) müəssisələrin (firmaların) fəaliyyətində xarici və daxili mühitin dəyişə biləcəyini və ya qeyri-müəyyənlikləri nəzərə ala bilməsinin nəticəsidir.

Risk kateqoriyası ehtimallıdır. Risk itkilərin müəyyən səviyyədə olması kimi ölçülür. Risk mümkün olan təhlükədir. Risk anlayışına ədəbiyyatlarda müxtəlif təriflər verirlər.

1. Risk dedikdə, baxılan layihənin (proqramın) həyata keçirilməsi nəticəsində itkilərin baş verməsi təhlükəsi başa düşülür.
2. Risk dedikdə baxılan layihənin qiymət göstəricilərinin (mənfəət, rentabellik, sərmayə və s.) çox saylı proqnozların nəticəsində alınan səpələnmə ölçüsü başa düşülür.
3. Risk dedikdə, sahibkarlıq layihəsində qoyulmuş məqsədin lazimi həcmdə (ölçüdə) və vaxtında yerinə yetirilməsi təhlükəsi başa düşülür.

Burada söhbət konkret təhlükədən gedir, belə ki, gözlənilən şərait (vəziyyət) əvəzinə daha xoşa gəlməz hadisələr baş verir ki, nəticədə misal üçün, mənfəət daha çox miqdarda azalır.

Müəssisənin fəaliyyət göstərdiyi sosail təbii-coğrafi mühitdən asılı olaraq, risklər iki sinfə bölünür.

Müəssisənin risklərinin sxemi



Şəkildə göstərilən hər sinif üzrə riskə aid misallar göstərək.

1.1. **Siyasi risk** – dövlət siyasətinin dəyişməsi nəticəsində itkilərə səbəb olma və ya mənfəətin azalması riskidir.

1.2. **İqtisadi risk** – müəssisənin rəqabət mövqeyini itirmə riskidir. Bu, firmanın iqtisadi mühitində nəzərdə tutulmamış dəyişikliklərin (enerji daşıyıcılarının qiymətinin

artması, kreditlər üçün faizlərin artması, gömrük faizlərinin yüksəldilməsi və s.) baş verməsi səbəslərindən olur.

1.3. **İstehsal riski** - məhsul istehsalı ilə (xidmət ilə) və istehsal fəaliyyətinin növü ilə əlaqədardır. İstehsal riskləri məhsul istehsalı və satışı, istehsal fəaliyyətinin hər hansı növünün həyata keçirilməsi ilə bağlıdır. Risklərin bu növünə məhsul istehsalı və satışının həcminin ixtisar edilməsi, planda nəzərdə tutulmuş maddi və əmlak məsuliyyətinin yüksəldilməsi, qiymətlərin aşağı düşməsi və s. olduqca əhəmiyyətli təsir edir. İstehsal riskinin yaranması səbəbləri əsasən avadanlığın sıradan çıxması və ya qəzalar səbəbindən planlaşdırılmış işlərin həcminin yerinə yetirilməməsi və ya istehsal planlaşdırılmasında buraxılmış nöqsanlara görə müəssisənin cari xərclərinin artması ilə bağlıdır.

1.4. **Maliyyə riski** - Maliyyə aktivləri ilə aparılan əməliyyatlarla əlaqədar risklərdir. Maliyyə riskləri maliyyə sahibkarlığının həyata keçirilməsi və ya maliyyə (pul) əməliyyatlan zamanı yaranır. Maliyyə riski faiz, kredit və valyuta risklərini birləşdirir. Faiz riski adətən sürüşkən faizlər əsasında borclar üçün uzunmüddətli müqavilələr bağlayarkən meydana çıxır. Maliyyə risklərində maliyyə əməliyyatlan zamanı tərəflərdən birinin ödəniş qabilində olmaması, valyuta əməliyyatlarının məhdudlaşdırılması da nəzərə alınmalıdır. İnvestisiya risklərinin ən mühüm xüsusiyyətlərindən biri cəlb edilmiş qiymətli kağızlardan ibarət investisiya-maliyyə portfelinin qiymətdən düşməsidir.

1.5. **Kommersiya riski** - müəssisənin (firmanın) istehsal etdiyi və ya aldığı məhsul və xidmətlərin realizə olunması prosesində yaranan risklərdir. Kommersiya riskləri məhsulun satışı və xidmətlərin göstərilməsi prosesində yaradılır. Kommersiya risklərinə təsir edən mühüm faktorlara aşağıdakılar göstərmək olar ki, onları da kommersiya əməliyyatları zamanı nəzərə almaq zəruridir. Kommersiya riskinin səbəbləri aşağıdakılar ola bilər: konyukturanın dəyişməsi nəticəsində satış həcminin azalması, əmtəələrin tədarük qiymətlərinin artması, tədarük həcminin gözlənilmədən azalması; tədavül prosesində əmtəə itkilərinin normadan çox olması, tədavül həcmlərinin normadan çox olması, tədavül həcmlərinin artması və s. Alınmış istehsal vasitələrinin qiymətlərinin səmərəsiz olaraq dəyişməsi, yəni artması; - reallaşdırılan məhsulun qiymətinin aşağı düşməsi; - tədavül prosesində məhsulun itkisi; - tədavül xərclərinin yüksəldilməsi.

1.6. **Texniki risk** - elmi texniki işlərin mənfi nəticələri, istehsalın texnoloji imkanlarının aşağı səviyyədə olması konstruktor və ya texnoloji işləmələr gedişində planlaşdırılmış texniki parametrlərə nail olmamaq, avadanlığın sıradan çıxması nəticəsində itkilərin baş verməsi və s. ehtimalı.

Müasir şəraitdə Azərbaycanda istehsal riskləri çox böyükdür. İstehsal risklərinin təşkilediciləri aşağıdakılardır:

1.Təsərrüfat müqavilələrinin icra olunması riski;

2.Bazar konyukturunun dəyişməsi riski;

3.Nəzərdə tutulmuş xərclərin əmələ gəlməsi riski;

4.Müəssisələrin əmlakının itirilməsi riski.

Sahibkarlıq fəaliyyətində risklərdən itkilər maddi əmək, maliyyə, vaxt itkisi və xüsusi növ itkilər olmaqla fərqlənir.

Maddi itkilər - bilavasitə layihədə nəzərdə tutulmayan xərclərlə bağlıdır.Bundan əlavə, maddi itkilər natural ifadədə maddi obyektlərin birbaşa itkisi ilə də (binalar, qurğular, məhsul, yarımfabrikat, xammal, materialllar, komplekləşdirilmiş məlumatlar) xarakterizə olunur.

Əmək itkiləri - iş vaxtı itkilərini ifadə edir ki, bu da təsadüfi və gözlənilməz şərtlərlə əlaqədardır.

İş vaxtı itkiləri adlanan adam-saat və ya adam-günlə ölçülür.

Maliyyə itkiləri - dəyər ifadəsində birbaşa dəyən zərərdən (sahibkarlıq fəaliyyəti ilə bağlı layihədə nəzərdə tutulmayan ödənişləri, cərimələri, vaxtı keçmiş proseslərə görə ödənişləri, əlavə vergiləri, pul vəsaitləri və qiymətli kağızların oğurlanmasından yaranan zərərləri) yaranır; Maliyyə itkiləri layihənin nəzərdə tutulmuş maliyyələşmə mənbələrindən pul vəsaitlərinin alınmaması və ya axıra qədər alınmaması, həmçinin borcların qaytarılmaması nəticəsində də yarana bilər.

Vaxt itkisi sahibkarlıq fəaliyyəti ilə bağlı proseslərin layihədə nəzərdə tutulmuş müddətdən gec yerinə yetirilməsi ilə bağlı hallarda yaradılır. Vaxt itkisi saatlarla, günlərlə, on günlərlə və aylarla ölçülür.

Xususi növ itkilərə insanların həyatına və sağlamlaşdırılmasına, ətraf mühitə dəyən zərərdən yaranan itkilər aid edilir və əlverişsiz sosial-psixoloji faktorlarla şərtlənir. Xüsusi növ itkilərə siyasi xarakterli gözlənilməz faktorların təsirindən yaranmış itkilər də aid edilir. Bu faktorlara həmçinin yaranmış qarmaqarışıqlıq iqtisadi şəraitdə təsir edir ki, bu da istehsal-təsərrüfat fəaliyyətinin ritmini pozur.

Nəticədə isə canlı və əşyalaşmış əmək məsrəflərini artırır, mənfəət isə azalır. Risklərin siyasi faktorlarının tipik mənbələrinə insanların işgüzar fəaliyyətinin aşağı düşməsi, qəbul edilmiş qanunvericilik aktlarının icra olunmaması, ödəniş və qarşılıqlı hesablaşmaların pozulması, vergi dərəcələrinin sabitsizİiyi, məcburi ayırmalar və ödənişlər aid edilir.

2.Layihənin baş verməsi zamanı baş verən risklər və onların qiymətləndirilməsi üsulları

Risklər nəzərə alınmaqla layihələrin maliyyələşdirilməsi məsələləri iki əsas vəzifənin həllini təmin etməklə onların yerinə yetirilməsi səmərəliliyin ən mühüm şərtlərindən biridir. Layihələrin maliyyələşməsi riskləri ilə bağlı əsas vəzifələr aşağıdakılardır: - layihələrin planauyğun yerinə yetirilməsi üçün zəruri olan investisiya axını; - investisiyaların optimal strukturu və vergi üstünlüklərinin təmin edilməsi hesabına layihələrin risklərinin və kapital xərclərinin aşağı salınması;

Layihələrin maliyyələşdirilməsi planında risklərin aşağıdakı növləri nəzərə alınır:

- vergi riskləri;
- borcların ödənilməsi ilə bağlı risklər;
- bitməmiş tikinti ilə bağlı risklər

Layihənin maliyyələşdirilməsi məsələlərini həll edərkən riskin uçotu onun səmərəli yerinə yetirilməsinin ən vacib şərtlərindən biridir. Riskin düzgün uçotu aşağıdakı iki əsas məsələni həll etməyə imkan verir:

- layihənin plana uyğun yerinə yetirilməsi üçün lazım olan investisiya axınının təmin olunması;
- investisiyanın optimal strukturu sayəsində layihənin kapital xərclərinin və riskinin azaldılması və vergi üstünlüklərinin alması.

Layihənin müəyyənləşdirilməsi planı aşağıdakı növ riskləri nəzərə almalıdır:

1.Layihənin qeyri-həyat qabiliyyətliliyi riski;

2.Vergi riski;

3.Borcların ödənilməsi riski;
4.Bitməmiş tikinti riski.
Layihənin ən yaxşı variantını gətirilmiş xərclər düsturu ilə seçmək olar:

$$Zpr = S + EnK,$$

burada, S – məhsulun maya dəyəri;
K - əsaslı qoyuluş;
En – əsaslı qoyuluşun səmərəli istifadə edilməsinin normativ əmsalıdır.

3.Risk dərəcələrinin riyazi üsullarla qiymətləndirilməsi

Maliyyə əməliyyatları risk səviyyəsinin qiymətləndirilməsini və onun kəmiyyətcə ölçülməsini tələb edir. Başqa sözlə, hər hansı hadisənin riyazi gözləməsi bu hadisənin onun başlama ehtimalını vurulma hasilinin mütləq qiymətinə bərabərdir.

Misal. Kapital qoyuluşunun iki variantı mümkündür. A tədbirinə qoyulan kapitalın verə biləcəyi 25 min manatın ehtimalı 0,6; B layihəsinə qoyulan kapitalın verə biləcəyi 30 min manat mənfəətin ehtimalı 0,4-dür.

Bu zaman kapital qoyuluşundan gözlənilən (yəni riyazi gözləmə) mənfəət
A layihəsinə görə - 15 min manat (25×0,6);
B layihəsinə görə -12 min manat (30×0,4) olacaqdır.
Hadisənin başlanması ehtimalı obyektiv və subyektiv metodlarla müəyyən edilə bilər.
Ehtimalın obyektiv təyin edilmə metodu həmin hadisənin baş verməsi tezliklərinin hesablanmasına əsaslanır.

Məsələn, əgər hər hansı tədbirə kapital qoyuluşiu zamanı 200 haldan 120 dəfə 25 min manat məbləğində mənfəət alınıbsa, belə mənfəətin alınma ehtimalı 0,6 (120:120) təşkil edir.

Ortada gözlənilən qiymət – qeyri müəyyən şəraitlə əlaqədar hadisənin ölçüsünün qiymətidir.Orta gözlənilən qiymət bütün mümkün nəticələrin orta qiymətidir.

Misal. Əgər A layihəsinə qoyuluşu zamanı 120 haldan 48-də 25 min manat (ehtimal 0,4), 36 halda 20 min manat (ehtimal 0,3) və 36 halda 30 min manat (ehtimal -0,3) alınmışdırsa, onda orta gözlənilən mənfəət 25 min manat olacaqdır. (25×0,4+20×0,3+30×0,3)= 25 min manat

Anoloji olaraq A və B layihələrinə kapital qoyuluşundan alınan mənfəət 20-30min manat arasında dəyişir və orta qiymət 25 min, manatdır, B layihəsinə qoyulan kapitaldan mənfəət 15-40 min manatdır və orta kəmiyyət 30 min manat təşkil edir.

4.Sahibkarlıq fəaliyyətində riskin azaldılması yolları və metodları

Biznes-planın və sahibkarlıq risklərinin aşağı salınması. Sahibkarlıq risklərinin aşağı salınması bazar münasibətləri şəraitində müəssisə və firmalarda biznes-planın mükəmməl işlənib hazırlanmasından və proqnozlardan daha çox asılıdır. Planlaşma və proqnozlaşma müəssisənin həcmindən və onun mülkiyyətinin təşkilati-hüquqi formasından asılı olmayaraq firmaların işgüzar fəaliyyətinin ayrılmaz tərkib hissəsidir. Biznes-plan bu və ya digər konkret şəraitə uyğun olaraq biznesin genişlənməsi imkanlarının təhlilini əhatə edir. Biznes-plan mövcud imkanlardan səmərəli istifadə edilməsinə və bu sahədə mümkün olan risklərin dərəcəsini minimuma endirməklə bağlı dəqiq təkliflər hazırlanmasına imkan

verir. Zəruri hesablamalara əsaslandırmalara malik dəqiq milli biznes-planı sahibkara və fəaliyyətini genişləndirməyə, baş verə bilən dəyişiklikləri və gələcək problemləri əvvəlcədən görməyə, cari əməliyyatlara nəzarət etməyə, fəaliyyətinin gözlənilən müvəffəqiyyətini qiymətləndirməyə, pul resurslarının ehtiyatım müəyyənləşdirməyə kömək edir. Biznes-planın tam şəkildə işlənib hazırlanması və layihənin genişləndirilməsi elmi proqnozlaşdırma ilə müşaiyət olunur.

Müəssisənin fəaliyyətində riski azaldan əsas metodlar aşağıdakılardır:

1. Layihənin işlənib hazırlanması üçün yüksək ixtisaslı məsləhətçilərin çəlb edilməsi.
2. Layihəqabağı işləmələr zamanı meydana çıxan əlavə problemlərin oyrənilməsi.
3. Bazar konyukturunun meylinin qiymətləndirilməsində proqnozlaşdırmanın elmi metodlarından istifadə edilməsi;
4. layihənin iştirakçılarının arasında riskin bölüşdürülməsi;
5. Riskin sığortalaşdırılması;
6. Nəzərdə tutulmayan xərclərin (məsrəflərin) doldurulması üçün vəsait ehtiyatlarının saxlanması;
7. Biznes planların hazırlanması.

Layihənin icraçıları arasında risklərin bölüşdürülməsi keyfiyyətcə və kəmiyyətcə aparıla bilər.

Sahibkarlıq fəaliyyətində riskin kontragentlər arasında düzgün bölüşdürüməsini təmin etmək məqsədəuyğundur. Risklərə görə məsuliyyəti layihəni daha yaxşı hesablayan və ona nəzarət edə bilən subyekt (layihənin yaradıcılarından biri, şirkətlərdən biri) daşımalıdır.

Risklərin bölüşdürülməsi layihənin maliyyə planlarına və müqavilə sənədlərinin işlənib hazırlanması zamanı realizə olunur.

Layihənin icraçıları arasında risklərin bölüşdürülməsi keyfiyyətcə və kəmiyyətcə aparıla bilər. Risklərin kəmiyyətcə bölüşdürülməsi zamanı müxtəlif riyazi modellərdən, standart həll üsullarından (ehtimal nəzəriyyəsinə əsasən) istifadə edilir.

Risklərin keyfiyyətcə bölüşdürülməsi layihənin iştirakçılarının bir sıra qərarların qəbul edilməsini nəzərdə tutur ki, bu da riskin paylarının çoxalması və azalmasma təsir edə biləcək potensial investorların sayının çoxaldılması və ya azaldılmasına yönəldilir. Lakin bu, layihəçilərin layihəyə təcrübəli investorların cəlb edilməsini çətinləşdirir. Danışıqların aparılması zamanı iştirakçılar riskin bölüşdürülməsi məsələsnii həll edilərkən maksimum çevik diqqətli olmalıdırlar.

Riskləri azaldan əsas amillərdən biri, riskin istehsal prosesinin iştirakçıları - hər şeydən əvvəl sifarişçi və podrartçı arasında paylaşdırılmasıdır.

Risklə əlaqədar qəraların qəbul edilməsi zamanı sahibkar (menecer) obyektiv və subyektiv amilləri nəzərə almalıdır. Risklə əlaqədar olan qərarları qəbul edən şəxs aşağıdakı xüsusiyyələrə malik olmalıdır:

- düşünmə orijinallığı;
- aqressivlik;
- müstəqillik və s.

Risklə əlaqədar olan qərarların qəbulu zamanı bir qrup sahibkar bir neçə alternativ həll irəli sürmək qabiliyyətinə malik olur, onlar öz qüvvələrinə inanır, stress, ətral mühitə qarşı dəyanətlidirlər, digər qrup sahibkarlar əks keyfiyyətə (xüsusiyyətə) malikdirlər: öz qüvvələrinə inanmırlar; stresə qarşı davamlı deyillər.

Müasir şəraitdə gəlirli iş təşkil etmək üçün sahibkar yaxşı peşə hazırlığı keçməli və iqtisadiyyat, siyasət, psixologiya, hüquq və istehsalın təşkili sahələrində lazımi biliklərə yiyələnməlidir, alimlərlə mütəxəssislərlə, marketolaqlarla, investorlarla əmakdaşlıq etməlidir.

Risklə əlaqədar qərarların kənar halları ifrat sığortalaşma və avantürizmdir (fırıldaqçılıqdır). İfrat sığortalanma zamanı risk heçə enir, avantürizm riski maksimuma qaldırır. İfrat sığortalaşma səmərini azaldır, avantürizmi yüksək risk səbəbindən planlaşdırılmış nəticənin alınmasına gətirir. Odur ki, hesablamalarla əsaslandırılmış riski nəzərə alan optimal qərarlar qəbul edilməlidir.

Risklərin sığortalanması Risklərin sığortalanması - müəyyən risklərin sığorta şirkətinə aid edilməsi ilə bağlıdır. İri sənaye müəssisələrinin tikintisi və yenidən quraşdırılması zamanı iki əsas sığorta üsullarından istifadə olunur. Əmlak sığortası və bədbəxt hadisələrdən sığorta. Əmlak sığortası zamanı dəniz yükləri, standart və qeyri-standart avadanlıqlar, podratçıların mülkiyyəti, həmçinin rekonstruksiyalarının icraçılarının riskləri sığorta edilir. Bədbəxt hadisələrdən sığorta isə vətəndaşların və əmək kollektivinin sığortası nəzərdə tutulur. Sığorta risklərindən asılı olaraq icraçıların sığorta riskləri üç tipdə ola bilir. Yanğından sığortanın standart müqaviləsi - birbaşa itkilərdən müdafiə edilməsinə xidmət edir. Yanğından sığortanın genişləndirilmiş müqaviləsi - yanğından sığortanın standart müqaviləsinə bir və ya bir neçə epizodik əlavələrin edilməsini nəzərdə tutur. Bu da konkret sığorta edilməsinin tələbləri ilə bağlıdır. Bu cür əlavələrə partlayışlardan yaranmış risklər daxildir.